31 May Azərbaycanın Müstəqillik Günüdür



*İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı tarixi Azərbaycan torpağıdır.*
**Heydər ƏLİYEV**

*Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpağında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpaqlarımızdır. Biz qayıdacağıq.*
**İlham ƏLİYEV**

Bir parça daş vətəndir!
*Mahirə NAĞIQIZI*

# YURDUN SƏSİ

№ 05 (20) May 2026-cı il




## Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 103-cü ildönümü ilə bağlı paylaşım edib

***Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə bağlı paylaşım edilib.***

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Ümummilli Lider Heydər Əliyev bugünkü Azərbaycanı görsəydi, şad olardı. Əminəm ki, Onun ruhu şaddır, çünki bugünkü Azərbaycan Onun əsəridir".

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər





***Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü günüdür.***

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla yad etdi.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə andı. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsinə ehtiramlarını ifadə edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.




## Birinci vitse-prezident Mehriban Əliyeva: Dahi şəxsiyyətin nurlu, əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır

***Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesabında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə bağlı paylaşım edilib.***

AZƏRTAC xəbər verir ki, paylaşımda qeyd olunub:

"Heydər Əliyev – 103. Dahi şəxsiyyətin nurlu, əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq".

# Heydər Əlirza oğlu Əliyev

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olub.

1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub, lakin İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib.

Heydər Əliyev 1941-1944-cü illərdə əvvəlcə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, sonra isə Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işləyib.

1944-cü ilin may ayında dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib.

1949-1950-ci illərdə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (indiki Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi təyin edilib.

1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsini bitirib.

1958-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi, 1964-cü ildə DTK-nın sədr müavini təyin edilib.

1966-cı ildə Moskvada DTK-nın F.E.Dzerjinski adına Ali Məktəbinin rəhbər heyətin təkmilləşdirilməsi kurslarını müvəffəqiyyətlə bitirib.

1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib və həmin ildə də ona general-mayor rütbəsi verilib.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib.

Heydər Əliyev 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olub. 1974-1979-cu illərdə isə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsini tutub.

1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edib.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa verib.

Heydər Əliyev 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar, yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib.

1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşüb, həmin ildə də Azərbaycan SSR xalq deputatı və Naxçıvan MSSR xalq deputatı seçilib.

1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilib və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub. Bu vəzifədə o, 1993-cü ilə kimi çalışıb.

Heydər Əliyev 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçilib.

1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandığına görə, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürüb və ölkənin o dövrkü rəhbərliyi onu Bakıya dəvət etməyə məcbur olub.

Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, iyunun 24-dən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.

O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar namizədliyini İlham Əliyevin xeyrinə geri götürüb.

2003-cü il dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat edib və dekabrın 15-də Bakıda, Fəxri xiyabanda dəfn olunub.

Heydər Əliyev beş dəfə keçmiş SSRİ-nin Lenin ordeni ilə, Qırmızı Ulduz ordeni və çoxsaylı medallarla təltif edilib, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına, həmçinin müxtəlif ölkələrin ali mükafatlarına, nüfuzlu ali məktəblərin fəxri adlarına layiq görülüb.

# Ulu Öndər Heydər Əliyev - Müstəqil Azərbaycanın Memarı

**Azərbaycan xalqının tarixində silinməz iz qoymuş görkəmli dövlət xadimi, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev xalqımızın taleyində müstəsna rol oynamış şəxsiyyətlərdəndir. Onun zəngin siyasi fəaliyyəti, uzaqgörən dövlətçilik strategiyası və milli maraqlara söykənən siyasəti Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında, dövlətçiliyimizin möhkəmlənməsində və xalqımızın rifahının yüksəlməsində həlledici rol oynamışdır. Ulu öndərin anadan olmasının 103 illiyi münasibətilə onun Azərbaycan naminə gördüyü misilsiz xidmətləri bir daha yada salmaq, əziz xatirəsini qəlblərdə yaşatmaq böyük qürur hissi doğurur.**



Dövlət quruculuğunun banisi olmuş Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən qısa müddət ərzində ölkədə genişmiqyaslı quruculuq və inkişaf proqramlarının həyata keçirilməsinə nail oldu. Həmin dövrdə Azərbaycan iqtisadiyyatının inkişafı, sənayenin modernləşdirilməsi, neft sektorunun təkmilləşdirilməsi, kənd təsərrüfatının gücləndirilməsi və milli kadrların yetişdirilməsi istiqamətində mühüm addımlar atıldı. Onun rəhbərliyi ilə yüzlərlə zavod, fabrik, məktəb, xəstəxana və mədəniyyət ocaqları tikildi. Respublikanın sosial-iqtisadi inkişafı ittifaq miqyasında nümunə göstərilən səviyyəyə çatdı.

Heydər Əliyev milli ruhun qorunmasına xüsusi önəm verirdi. O, Azərbaycan dilinin inkişafı, milli mədəniyyətin təbliği və xalqın tarixi yaddaşının yaşadılması istiqamətində ardıcıl siyasət həyata keçirirdi. Məhz onun təşəbbüsü ilə Azərbaycan dilinə dövlət dili statusunun verilməsi milli kimliyimizin qorunmasında mühüm mərhələ oldu.

1990-cı illərin əvvəllərində Azərbaycan mürəkkəb siyasi böhran, iqtisadi tənəzzül və vətəndaş qarşıdurması ilə üz-üzə qalmışdı. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal edilir, ölkədə xaos hökm sürürdü. Belə ağır şəraitdə xalqın tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi. 1993-cü ildən başlayaraq ölkədə siyasi sabitlik təmin olundu, dövlət institutları formalaşdırıldı və qanunçuluq bərpa edildi. Ulu öndərin rəhbərliyi ilə qəbul olunan Konstitusiya müstəqil Azərbaycanın hüquqi əsaslarını müəyyənləşdirdi. Onun həyata keçirdiyi neft strategiyası isə ölkənin iqtisadi inkişafının təməlini qoydu. "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirdi və ölkəmizin beynəlxalq mövqeyini gücləndirdi. Heydər Əliyevin peşəkar ordu konsepsiyası Azərbaycanın hərbi qüdrətinin əsasını təşkil etdi. Ulu Öndər Heydər Əliyevin söylədiyi "Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Azərbaycan dövlətinin apardığı siyasət, əməli fəaliyyət bundan ibarətdir. Bunun üçün və gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır. Biz ordu quruculuğu işi ilə məşğul oluruq" fikirlərini bu gün də qürurla xatırlayırıq. Heydər Əliyev daim vurğulayırdı ki, müstəqil dövlətin əsas dayaqlarından biri güclü ordudur. Onun hakimiyyəti illərində nizami ordu quruculuğuna xüsusi diqqət yetirildi, hərbi hissələrin fəaliyyəti gücləndirildi, peşəkar zabit hazırlığı genişləndirildi. 1972-ci ildən başlayaraq, hər il 300-400 azərbaycanlı gəncin ali hərbi təhsil almaq üçün SSRİ-nin müxtəlif hərbi məktəblərinə göndərilməsi, Azərbaycan Silahlı Qüvvələrinin formalaşması və müasir ordu modelinin yaradılması məhz ulu öndərin adı ilə bağlıdır. Bu siyasətin nəticələri sonrakı illərdə özünü aydın şəkildə göstərdi. Bu gün Azərbaycanın əldə etdiyi tarixi qələbələrin təməlində də Heydər Əliyevin müəyyən etdiyi strateji yol dayanır.

Heydər Əliyev gəncləri Azərbaycanın gələcəyi hesab edirdi. Onun gənclər haqqında dediyi "Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir…

Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" sözləri gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi dəyərlərə malik olduğunun göstəricisidir. O, təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri elan etmişdi. Onun təşəbbüsü ilə minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə bir çox ixtisasları mənimsəmək üçün göndərildi. Milli kadr potensialının formalaşdırılması gələcək dövlət idarəçiliyinin əsasını təşkil etdi. Müstəqillik dövründə də gənclərin vətənpərvər ruhda tərbiyəsi, savadlı və peşəkar kadr kimi yetişməsi istiqamətində mühüm proqramlar həyata keçirildi. Heydər Əliyev gənclərə müraciətlərində daim elmə, biliyə və milli dəyərlərə bağlı olmağı tövsiyə edirdi. Bu gün Azərbaycanın inkişafında fəal iştirak edən gənc nəslin yetişməsində ulu öndərin siyasətinin böyük rolu vardır.

Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün ardıcıl və prinsipial siyasət aparırdı. O, bütün beynəlxalq tribunalarda Azərbaycanın haqlı mövqeyini müdafiə edir, Ermənistanın işğalçılıq siyasətini ifşa edirdi. Ulu öndər Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu dəfələrlə bəyan etmiş, tarixi və hüquqi faktlarla bu həqiqəti əsaslandırmışdı. Onun apardığı diplomatik fəaliyyət nəticəsində dünya dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıdı və dəstəklədi. Qarabağ həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində atılan addımlar sonrakı diplomatik uğurlar üçün möhkəm zəmin yaratdı.

Qaçqın və məcburi köçkünlərə sosial qayğı Heydər Əliyev daim diqqət mərkəzində idi. Ermənistanın işğalçılıq siyasəti nəticəsində yüz minlərlə azərbaycanlı öz doğma yurdlarından didərgin düşdü. Ulu öndər Heydər Əliyevin göstərişi ilə onların yaşayış şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi və dövlət qayğısı ilə əhatə olunması istiqamətində mühüm proqramlar həyata keçirildi. Ulu öndər məcburi köçkünlərlə görüşlərində onların bir gün öz doğma torpaqlarına qayıdacaqlarına inandığını bildirirdi. Bu inam xalqın mübarizə ruhunu daha da gücləndirirdi. Bu gün də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən həyata keçirilən böyükmiqyaslı humanitar, mədəni və sosial layihələr Heydər Əliyev ideyalarının təbliği və inkişafında mühüm rol oynayır.

Heydər Əliyev Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın taleyinə xüsusi həssaslıqla yanaşırdı. O, müxtəlif dövrlərdə azərbaycanlıların öz tarixi torpaqlarından zorla çıxarılmasını xalqımıza qarşı həyata keçirilmiş böyük ədalətsizlik kimi qiymətləndirirdi. 1948-1953-cü illərdə və sonrakı mərhələlərdə tarixi torpaqlarında yaşayan azərbaycanlıların deportasiyaya məruz qalması ulu öndərin diqqətində olmuşdur. Onun imzaladığı fərmanlarla deportasiya faktlarına siyasi-hüquqi qiymət verilmiş, bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm işlər görülmüşdür. Heydər Əliyev bildirirdi ki, Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın hüquqları unudulmamalı, onların tarixi yaddaşı yaşadılmalıdır. Bu siyasət milli həmrəyliyin və tarixi ədalət uğrunda mübarizənin mühüm tərkib hissəsinə çevrilmişdir. Ölkə prezidenti İlham Əliyev bu siyasəti beynəlxalq diplomatiya və hüquqi-siyasi platformalar üzərindən uğurla davam etdirir.

Heydər Əliyev Azərbaycan xalqının yaddaşında yalnız böyük siyasətçi kimi deyil, həm də xilaskar və qurucu lider kimi yaşayır. Onun müəyyən etdiyi inkişaf strategiyası bu gün də cənab prezident ilham Əliyev tərəfindən uğurla davam etdirilir. Güclü dövlətçilik, milli birlik, iqtisadi inkişaf, ordu quruculuğu və vətənpərvərlik ideyaları ulu öndərin siyasi irsinin əsasını təşkil edir.

Ulu öndərin 103 illiyi münasibətilə onun əziz xatirəsini dərin ehtiramla yad edir, Azərbaycan naminə göstərdiyi misilsiz xidmətləri böyük minnətdarlıq hissi ilə xatırlayırıq. Heydər Əliyevin zəngin dövlətçilik məktəbi xalqımızın gələcək inkişaf yoluna daim işıq salacaqdır.

Bu gün Ulu öndərin ruhu şaddır, qurduğu müstəqil Azərbaycan dövləti onun layiqli davamçısı olan xalqın güvən yeri, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla idarə edilir.



*Fərhad Ələkbərov,*
*SOCAR "Qaz İxrac" idarəsi, Maliyyə və vergi şöbəsində Aparıcı iqtisadçı,*
*Qərbi Azərbaycan İcması,*
*Keşkənd rayonu*
*Qalaser kənd icma rəhbəri*

*31 may tarixində Şamaxının füsunkar Qızmeydan kəndi, Azərbaycanın zəngin mədəniyyətini və sarsılmaz tarixi yaddaşını özündə ehtiva edən, ruhlara qanad verən möhtəşəm bir mədəniyyət hadisəsinə ev sahibliyi etdi.*

# Şamaxıda "Elləroyuğu Yaylaq Festivalı": Tarixi yaddaşın oyanışı, ulu saza ehtiram və Böyük Qayıdışın təntənəsi



Akademik Abel Məhərrəmovun rəhbərliyi ilə keçirilən “Elləroyuğu yaylaq festivalı”, sadəcə bir el şənliyi deyil, həm də kökümüzə, mənəviyyatımıza və əzəli yurd yerlərimizə mənəvi qayıdışın, milli birliyin ən ali təzahürü kimi tarixə yazıldı.

Ağbaba-Şörəyel mahalı Azərbaycanın zəngin tarixi coğrafiyasının ayrılmaz bir parçası, qədim Oğuz-Türk mədəniyyətinin beşiyi və mənəvi qalasıdır. Bu torpaqların hər qarışı, hər toponimi qədim türk izlərini və minillik dövlətçilik ənənələrini özündə yaşadır. Regionun mədəni simasını formalaşdıran Ağbaba-Çıldır aşıq mühiti isə sadəcə bir musiqi məktəbi deyil, xalqımızın fəlsəfi dünyagörüşünü, əxlaqını və tarixi yaddaşını sazın və sözün dili ilə gələcək nəsillərə ötürən canlı bir kitabdır. Festival çərçivəsində təşkil olunan “Kəndimizin Tarixi Yaddaşı” sərgisi qonaqlara əcdadlarımızın ruhunu və bu zəngin irsin əsrlər boyu necə qorunub saxlanıldığını əyani şəkildə nümayiş etdirdi.Tədbirin rəsmi və bədii hissəsində xüsusilə vurğulandı ki, bütün bu tarixi təşəbbüslərin, yurd yerlərimizin bir araya gəlməsinin və milli birliyimizin sarsılmaz bir yumruğa çevrilməsinin ideya müəllifi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir. Akademik Abel Məhərrəmov, Qərbi Azərbaycan İcmasının sədri və millət vəkili Əziz Ələkbərli, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov öz çıxışlarında birmənalı şəkildə qeyd etdilər ki, cənab Prezidentin Qərbi Azərbaycana qayıdışa dair tarixi çıxışları və "Qayıdış Konsepsiyası" bu gün milyonlarla soydaşımızı vahid amal ətrafında birləşdirən işıqlı bir yoldur. Məhz bu dahi strateji baxışın nəticəsidir ki, bu gün Ağbaba-Şörəyel elləri öz kimliyini daha qürurla bəyan edir və doğma torpaqlara qayıdışın mənəvi hazırlığını yüksək səviyyədə təşkil edir.

Giriş nitqində akademik Abel Məhərrəmov tədbirin məhz Şamaxının Qızmeydan kəndində keçirilməsinin dərin rəmzi və mənəvi məna daşıdığını xüsusi vurğuladı. O qeyd etdi ki, ilk növbədə, bu yerlərin təbiəti, əsrarəngiz alp çəmənlikləri uzaq Ağbabanı xatırladır və insanı doğma yurdun havası ilə nəfəs almağa sövq edir. İkinci bir tərəfdən, bu kənd Ağbaba-Şörəyel camaatının sıx məskunlaşdığı bir məkan olduğu üçün seçilmişdir. Akademik Abel Məhərrəmov bu yanaşmanı belə izah etdi: "Bu dəfə onları Bakıya dəvət etməmişik, özümüz ellərimizin, camaatımızın yanına gəlmişik" – bu sözlər isə festivalın həm də bir mənəvi qovuşma və el-oba birliyinin təntənəsi olduğunun ən bariz nümunəsi idi.

Festivalın ən mühüm məqamlarından biri, Ağbaba-Çıldır aşıq mühitinin sonuncu azman nümayəndəsi Aşıq İsgəndər Ağbabalının 100 illik yubileyi idi. Akademik Abel Məhərrəmov tədbirin keçirilməsindəki həm maddi, həm də mənəvi dəstəyini "Böyük Qayıdışa verilən müqəddəs töhfə" kimi qiymətləndirdi. O, çıxışında vurğuladı ki, bu fəaliyyətlər xalqımızın öz kökünə, elinə-obasına olan tükənməz sevgisinin ifadəsidir və bu istiqamətdəki fəaliyyət böyük şövqlə davam etdiriləcəkdir. Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli ustad aşıq haqqında danışarkən onun sazını xalqımızın əyilməz iradəsinin səsi adlandırdı, Şamaxı İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov isə Qızmeydanda süzülən Ağbaba havasının bütöv Azərbaycanın nəfəsi olduğunu vurğuladı. Millət vəkili, professor Hikmət Babaoğlu isə Aşıq İsgəndər Ağbabalı irsini milli kimliyimizin strateji yaddaşı kimi dəyərləndirdi. Professorlar Məhərrəm Qasımlı, Mahirə Hüseynova və Avtandil Ağbabalı isə elmi yanaşmaları ilə Ağbaba-Çıldır aşıq məktəbinin Azərbaycan mədəniyyətindəki bənzərsiz yerini bir daha təsdiqlədilər.



Festivalın qonaqları arasında yer alan akademik Adil Qəribov isə öz çıxışında bu mötəbər toplantının tarixi əhəmiyyətini xüsusi vurğulayaraq, belə bir formatın ilk dəfə təşkil olunmasının əlamətdar hadisə olduğunu qeyd etdi. Akademik, Ağbaba-Şörəyel camaatının fəxrlə adını çəkdiyi, hər zaman özünün sarsılmaz dövlətçilik mövqeyi, vətənə və xalqa olan tükənməz sədaqəti ilə örnək olan akademik, Əməkdar elm xadimi Abel Məhərrəmovun bu nəcib təşəbbüsünə görə ona dərin minnətdarlığını ifadə etdi. Adil Qəribov vurğuladı ki, Abel Məhərrəmovun fəaliyyəti sadəcə elmi uğurlarla məhdudlaşmır, o, həm də milli kimliyimizin qorunması, tariximizin və toponimlərimizin gələcək nəsillərə ötürülməsi istiqamətində dövlətçilik maraqlarını hər şeydən uca tutan, məsuliyyətli və vətənpərvər bir ziyalı nümunəsidir. Belə bir festivalın məhz onun rəhbərliyi ilə gerçəkləşməsi, milli birliyimizin möhkəmlənməsinə və dövlətimizin ali məqsədlərinin el-oba səviyyəsində təbliğinə verilən ən böyük töhfələrdən biri kimi dəyərləndirildi və tələbə yoldaşı olan Abel müəllimlə fəxr etdiyini xüsusi vurğuladı. Bütün çıxışları diqqətlə dinləyən tədbir iştirakçılarının simasında yaşanan kövrək duyğuların ahəngi qəlbləri riqqətə gətirdi.

Nahar fasiləsində Şəmsi Qocanın və İmran Güllübulaqlının şeirlərinə bəstələnmiş mahnılar ifa olunarkən məclis duyğulu anlar yaşadı; bu musiqilər hər bir ağbabalıya doğma yurdun həsrətini yaşatdı. Şəmsi Qocanın “Əsrin saz yaddaşı: Aşıq İsgəndər Ağbabalı” monoqrafiyası və Ağbabalı alim və tədqiqatçıların, şairlərin Aşıq İsgəndər Ağbabalıya həsr olunmuş məqalələrindən və şeirlərindən ibarət “Aşıq İsgəndər Ağbabalı – 100” kitabı iştirakçılara hədiyyə edilərkən, Qəşəm İsaoğlu, Telman Gülsehran və usta Naibin qara zurnada ifa etdikləri ecazkar el havaları, ağsaqqalların və gənclərin birgə ifa etdikləri Ağbaba yallısı festivalın zirvə nöqtəsinə çevrildi. Tədbirin ən qürurverici məqamlarından biri Qərbi Azərbaycan İcmasının sıralarının genişlənməsi oldu. İcmanın üzvlüyünə qəbul olunan kənd sakinlərinə təqdim edilən vəsiqələr və döş nişanları sadəcə sənəd deyil, tarixi ədalətin bərpası yolunda atılan mətin bir addımın simvolu idi. Təşəkkürnamələrlə təltif olunan soydaşlarımızın sevincinə qoşulan kənd sakinləri akademik Abel Məhərrəmova və icra başçısı Tahir Məmmədova göstərdikləri yüksək təəssübkeşliyə görə dərin minnətdarlıqlarını bildirdilər. Aşıq Faxfur Gülməmmədov isə ailə adından atasının xatirəsinə göstərilən bu ali ehtirama görə təşkilatçılara və qonaqlara təşəkkür etdi.

Festivalın finalı elin birliyinə vurulan bir möhür, Böyük Qayıdışın zəfər marşı kimi səsləndi. Meydanda səslənən qədim el havaları, Ağbaba-Çıldır mühitinin ruhunu yaşadan həzin nəğmələr və igidlərin coşqu ilə ifa etdiyi rəqslər hər kəsin qəlbində dərin izlər buraxdı. Doğma yurdun nisgili, keçmişin şirin xatirələri və gələcəyə olan tükənməz inamın bir araya gəldiyi bu məqamlarda kövrək, duyğulu anlar yaşandı; gözlərdə dolan yaşlar, əslində, Ağbabaya qovuşacağımız o müqəddəs günün müjdəçisi idi.Akademik Abel Məhərrəmovun sözləri ilə desək, bu gün Qızmeydanın havası ilə Ağbabanın nəfəsi birləşdi; çalınan sazın sədası gələcək nəsillərə ötürülən bir əmanətdir ki, o torpaqlar sahiblərini gözləyir və qayıdış günü əbədi bir həqiqət kimi bizə çox yaxındır. Bəli, Ağbaba bizimdir, Ağbaba keçmişimiz, bu günümüz və ən əziz, ən əlçatan gələcəyimizdir. Bu festival, tariximizin yaddaşına qızıl hərflərlə yazıldı və hamıya bir daha xatırlatdı ki, sazın harayı olduğu müddətcə, yurd yerlərimiz unudulmayacaq, xalqımız öz əzəli torpaqlarına qayıdacaqdır.

# Lənkəran Dövlət Universitetində “Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır” mövzusunda tədbir keçirilib



*ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru prof. Mahirə Hüseynova Lənkəran Dövlət Universitetində “Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır” mövzusunda keçirilən tədbirdə çıxış edib.*

## *Prof.Mahirə Hüseynova tədbirdə çıxış edib*

Lənkəran Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü və 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Qərbi Azərbaycan İcması ilə birgə “Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır” mövzusunda keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə start götürüb. Sonra Ulu Öndər Heydər Əliyevin və vətən uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Lənkəran Dövlət Universitetinin rektoru, professor Natiq İbrahimov tədbiri giriş sözü ilə açaraq belə maarifləndirici görüşlərin gənclərin vətənə məhəbbət, milli-mənəvi dəyərlərə hörmət, dövlətçiliyimizə sədaqət ruhunda tərbiyəsinə müsbət təsir göstərdiyini deyib, Qərbi Azərbaycan İcmasının bu istiqamətdəki fəaliyyətini yüksək dəyərləndirib.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, professor Mahirə Hüseynova icmanın çoxşaxəli fəaliyyətindən ətraflı söz açıb,Elm və Təhsil Nazirliyi ilə birgə orta ümumtəhsil məktəblərində və ali təhsil ocaqlarında keçirilən tədbirlərin gənclərin vətənpərvərlik tərbiyəsinin yüksəldilməsindəki rolunu xüsusi vurğulayıb, tarixi faktlara, elmi-bədii mənbələrə istinadən Qərbi Azərbaycanın əzəli və əbədi Azərbaycan torpağı olduğunu deyib, o torpaqlara qayıdışın çox da uzaq tarix olmayacağına inamını ifadə edib.

Tədbirdə həmçinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin məsul əməkdaşları Hilal Salmanov, Rövşən Ağayev çıxış edərək Qərbi Azərbaycan İcmasının təmsil etdikləri qurumla birgə həyata keçirdiyi layihə çərçivəsində görülən işlərdən, maarifləndirici tədbirlərdən söz açıblar.

# Sovet hakimiyyəti dövründə Qərbi Azərbaycan

***1918–1920-ci illərdə Qərbi Azərbaycan ərazisində daşnakların hakimiyyəti dövründə olduğu kimi, Sovet Ermənistanında da azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti müxtəlif mərhələlərlə və müxtəlif üsullarla davam etdirilmişdir. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti ilə yanaşı Azərbaycan ərazilərinin hesabına Ermənistan ərazisinin genişləndirilməsi prosesi davam etdirilmişdir.***

Əgər 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Ermənistan arasında Batumda sülh və dostluq haqqında imzalanan müqaviləyə əsasən Ermənistan Respublikasının ərazisi təqribən 10 min kvadratkilometrə bərabər idisə, sovet hakimiyyətinin qurulması ərəfəsində daşnak Ermənistanı təqribən 18 min kvadratkilometr əraziyə nəzarət edirdi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulmuşdu. 1920-ci il dekabrın 2-də İrəvanda Sovet Rusiyası ilə Sovet Ermənistanı arasında hərbi-siyasi saziş imzalanmışdı. Sazişi Rusiya tərəfindən Ermənistandakı diplomatik nümayəndə Boris Leqran, Ermənistan tərəfindən isə dərhal bolşeviklərin tərəfinə keçən general Dro və A.Terteryan imzalamışdılar. Ermənistanın sovetləşməsinin müqabilində Rusiya bütün keçmiş İrəvan quberniyasının, Zəngəzur qəzasının, Qazax qəzasının dağlıq hissəsinin Sovet Ermənistanına daxil olmasını mübahisəsiz tanıdığını bəyan etmişdi.

Ermənistan Xalq Komissarları Soveti 20 iyul 1921-ci ildə Ermənistanın 8 qəza 33 nahiyədən ibarət inzibati-ərazi bölgüsünü təsdiq etmişdi. Avqustun 31-də isə yeni 9-cu qəza – mərkəzi Gorus şəhəri olmaqla Zəngəzur qəzası yaradılmışdı. Azərbaycan isə öz növbəsində Zəngəzurun qərb hissəsini öz inzibati-ərazi bölgüsündən çıxarmışdı. Bununla da Zəngəzur iki hissəyə bölündü və onun qərb hissəsi Ermənistana birləşdirildi. Daha sonra Qərbi Zəngəzur ərazisində Mehri (Meğri), Qafan, Qarakilsə (Sisian) və Gorus rayonları yaradıldı.

Sovet Ermənistanı iqtisadi cəhətdən Azərbaycandan asılı olduğu üçün azərbaycanlılara qarşı 1918–1920-ci illərdə törədilən etnik təmizləmə siyasətini daşnak hökumətinin ayağına yazmağa çalışırdı. Əslində isə Sovet Ermənistanı hökuməti də azərbaycanlı qaçqınların öz əzəli torpaqlarına qayıtmalarını hər cür bəhanələrlə əngəlləməyə çalışırdı. Ermənistan hökuməti, əsasən, İran ərazisində sığınacaq tapmış azərbaycanlı qaçqınlara Zəngibasar və Vedibasar mahallarına qayıtmağa o şərtlə razılıq vermişdi ki, onlar gərək 1918–1920-ci illərdə ermənilərə qarşı döyüşlərdə iştirak etmədiklərini sübuta yetirmiş olaydılar.

1921-ci ilin payızında Ermənistan hökuməti ölkənin ağır iqtisadi vəziyyətini və yoluxucu xəstəliklərin yayılmasını əsas gətirərək qaçqınların 1922-ci ilin yazınadək Culfa–İrəvan dəmiryol xətti ilə azərbaycanlıların reevakuasiyasını dayandırmaq haqqında qərar qəbul etmişdi. Ermənistan hökuməti bir tərəfdən Azərbaycan hökumətinə müraciət edirdi ki, Azərbaycanda sığınacaq tapmış azərbaycanlı qaçqınların öz vətənlərinə qayıtmalarını dayandırsın, digər tərəfdən isə Türkiyə ərazisindən gələn erməni qaçqınlarının əsasən azərbaycanlılar yaşayan mahallarda yerləşdirilməsi haqda qərar qəbul etmişdi. Zəngibasarda 25 min, Vedibasarda 60 min, Gərnibasarda 25 min, Dilican dairəsində 25 min, Qarakilsə dairəsində 25 min, Novo-Bəyazid dairəsində 10 min ermənin məskunlaşdırılması qərara alınmışdı. Ermənistan hökuməti bunu ona görə edirdi ki, azərbaycanlı qaçqınlar vətənə döndükdə öz evlərinin və eləcə də bütövlükdə kəndlərin erməni qaçqınları tərəfindən məskunlaşdırıldığını görüb ya geri qayıtsınlar, ya da başqa bir yerdə özlərinə yeni sığınacaq tapsınlar. Bütün bunlar Sovet Ermənistanı hökumətinin azərbaycanlıların diskriminasiyaya məruz qoyulmaları üçün atdığı düşünülmüş addım idi.

Bütün bunlara baxmayaraq, azərbaycanlılar Qərbi Azərbaycandakı doğma yer-yurdlarına qayıdırdılar. 1921-ci ilin mayından 1922-ci ilin may ayının sonunadək indiki Ermənistan ərazisinə 96,5 min nəfər azərbaycanlı qayıtmışdı. O cümlədən İrəvan qəzasına 26 min, Novo-Bəyazid qəzasına 14 min, Eçmiədzin qəzasına 9 min, Aleksandropol qəzasına 10 min, Zəngəzura 15 min, Dərələyəzə 5,5 min, Loru-Pəmbək və Karvansara (İcevan) bölgəsinə 17 min azərbaycanlı qaçqın qayıtmışdı.

1922-ci ildə Ermənistanda keçirilən siyahıya alınmaya görə, Dərələyəz qəzasında 5.431 nəfər, Dilican qəzasında 8.476 nəfər Zəngəzur qəzasında 6.464 nəfər, Qarakilsə qəzasında 4.497 nəfər, Gümrü (Aleksandropol) qəzasında 6.372 nəfər, Lori qəzasında 4.807 nəfər, Mehri (Meğri) qəzasında 53 nəfər, Novo-Bəyazid qəzasında 10.666 nəfər, İrəvan qəzasında 16.723 nəfər, Eçmiədzin qəzasında 7.224 nəfər azərbaycanlı məskunlaşmışdı. Ermənistanda həmin vaxt qəzalarda 71.190 nəfər azərbaycanlı mövcud idi ki, bu da Ermənistan əhalisinin 11,2 faizini təşkil edirdi.

1922-ci ildə Ermənistanın 164 yaşayış məntəqəsinə azərbaycanlılar qayıtmışdılar.

1926-cı ildə keçirilən ümumi Zaqafqaziya siyahıyaalınmasının nəticələrinə görə Ermənistanda 84717 türkdilli (azərbaycanlı) əhali qeydə alınmışdı. (Naselenie Zakavkazğe. Vsesoöznaə perepisğ naseleniə 1926 q. Tiflis, 1928, s. 18).

1930-cu ildən etibarən Ermənistanda qəza inzibati-ərazi bölgüsü ləğv edilərək rayon inzibati bölgüsünə keçilmişdi. 1931-ci ildə Ermənistanda 27 rayon mövcud idi. Rayonların adları belə idi: Paşalı (Əzizbəyov), Allahverdi, Axta, Amasiya (Ağbaba), Əştərək, Abaran, Ərtik (Artik), Basarkeçər, Gorus, Dilican, Karvansara (İcevan), Düzkənd (Leninakan, sonralar Axuryan), Böyük Qarakilsə (Kirovakan), Kotayk, Qurduqulu (Hoktemberyan), Qəmərli (Artaşat), Qafan, Qaranlıq (Martuni), Mehri (Meğri), Keşişkənd (Mikoyan), Novo-Bəyazid, Şəmşəddin, Qarakilsə (Sisian), Cəlaloğlu (Stepanavan), Üçkilsə (Vağarşapat), Vedi. Həmin rayonlarda 99.796 nəfər azərbaycanlı yaşamışdır. 1931-ci ildə İrəvan şəhərində 6656 nəfər, Gümrüdə (Leninakanda) 316 nəfər azərbaycanlı yaşamışdır. Üst-üstə Qərbi Azərbaycanda 106.708 nəfər azərbaycanlı qeydə alınmışdı ki, bu da respublika əhalisinin 10,1 faizini təşkil edirdi. Həmin dövrdə Qərbi Azərbaycanda 1242 yaşayış məntəqəsi mövcud idi.



*Nazim Mustafa*
*Tarix üzrə fəlsəfə doktoru,*
*Dövlət mükafatı laureatı*

Ümumiyyətlə, indiki Ermənistan ərazisində müxtəlif vaxtlarda üst-üstə 40 rayon mövcud olmuşdur.

1939-cu ildə keçirilən Ümumittifaq siyahıyaalınmasının nəticələrinə görə Qərbi Azərbaycanda 130.896 nəfər azərbaycanlı qeydə alınmışdı ki, bu da respublika əhalisinin 10,2 faizini təşkil edirdi.

1947-ci il dekabrın əvvəlində Azərbaycan və Ermənistan K(b)P MK-larının birinci katiblərinin adından İ.Stalinin adına məktub göndərilir. Birgə məktubda Ermənistanda yaşayan 130 min nəfər azərbaycanlının köçürülməsi məsələsini həll etmək xahiş olunurdu. Surəti Azərbaycan Respublikası Siyasi Sənədlər Arxivində saxlanılan həmin məktubun altında imza, imzalanma tarixi və göndərilmə nömrəsi qeyd olunmamışdır. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti “Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” qərar qəbul etmişdir. Həmin qərarla Ermənistanın 22 rayonundan 100 min azərbaycanlının köçürülməsi nəzərdə tutulmuşdu. Qərarın 1-ci bəndində 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. 1948–1953-cü illərdə Qərbi Azərbaycandakı azərbaycanlılar yaşayan 24 rayondakı 200-dən artıq yaşayış məntəqəsindən və İrəvan şəhərindən təqribən 100 min nəfər azərbaycanlı öz tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. Deportasiya nəticəsində Ermənistan rəhbərləri Əştərək, Qaranlıq (Qaranlıq), Qarabağlar, Ellər (Abovyan), Üçkilsə (Eçmiədzin) rayonlarından azərbaycanlıların izinin silinməsinə nail oldular. Sonra isə Qarabağlar rayonu ləğv edildi (hazırda bu rayonun kəndlərinin əksəriyyəti xaraba qalmışdır). SSRİ hökumətinin azərbaycanlıların köçürülməsi haqqında verdiyi qərarlar Ermənistan hökumətinə fürsət verdi ki, İrəvan şəhəri ətrafında və Ermənistanın İran və Türkiyə ilə sərhədləri boyunca mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin əksəriyyətini yer-yurdlarından deportasiya etmək yolu ilə birdəfəlik xəritədən silə bilsin. Yalnız 1953-cü ildə İ.Stalinin ölümündən sonra Ermənistandan deportasiya edilən azərbaycanlıların bir qismi öz tarixi-etnik torpaqlarına qayıda bilmişdilər.

1959-cu ildə keçirilən Ümumittifaq siyahıyaalınmasının nəticələrinə görə Qərbi Azərbaycanda 107.748 nəfər azərbaycanlı qeydə alınmışdı ki, bu da respublika əhalisinin 6,1 faizini təşkil edirdi.

Ermənistanda antitürk, antiazərbaycan təbliğatı 1960-cı illərin ortalarında yenidən var gücü ilə işə salınmışdı. 1965-ci ildə uydurma “erməni soyqırımı”nın 50 illiyinin qeyd edilməsi haqqında qərarın qəbul edilməsi erməni şovinizmini daha da qızışdırmışdı.

1970-ci ildə azərbaycanlıların miqdarı 158.189 (5,3 %) nəfər, 1979-cu ildə isə müvafiq olaraq 160.841 nəfər (5,3 %) təşkil etmişdi.

Mixail Qorbaçovun 1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi seçiləndən sonra Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin öz müqəddəratını təyin etməsi pərdəsi altında Azərbaycana qarşı anneksiya planı işlənib hazırlanmışdı. Ermənistanın Azərbaycana qarşı anneksiya planının həyata keçirilməsinə maneçilik törədə biləcək yeganə şəxs – Heydər Əliyev 1987-ci ilin oktyabrında erməni lobbisinin təzyiqi ilə keçmiş Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırıldı.

1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin yalnız erməni deputatların iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti DQMV Xalq Deputatları Sovetinin konstitusiyaya zidd qərarını rədd etdikdən sonra Ermənistanın millətçi rəhbərləri “Daşnaksutyun” partiyasının “Türksüz Ermənistan” proqramını həyata keçirməyə başladılar. Moskvanın ermənilərə arxa durması nəticəsində 1987–1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məskənləri boşaldıldı. Ermənistanın Mehri (Meğri) rayonunun Zəngilan rayonu ilə həmsərhəd bölgəsində qalmış axırıncı azərbaycanlı kəndi – Nüvədi də 1991-ci il avqustun 8-də boşaldıldı. Ümumiyyətlə, həyata keçirilən sonuncu etnik təmizləmə nəticəsində Ermənistanın 22 kənd rayonundan, 6 şəhərindən təqribən 250 min azərbaycanlı tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldu. Ermənilərin illər boyu arzuladıqları “Türksüz Ermənistan” siyasəti həyata keçirildi.

Ümumiyyətlə, son dövrədək indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus 704 inzibati-ərazi vahidinin adları dəyişdirilmişdir.

1920-ci ildən sonra Moskvanın birbaşa köməyi ilə Sovet Ermənistanının ərazisinin təqribən 11 min kv km. artdığı məlum olur. Tarixi Azərbaycan ərazisində mövcud olan Ermənistan Respublikasının ərazisi hazırda 29.743 km?-ə bərabərdir. Bu gün Ermənistanın sərhəd xəttinin ümumi uzunluğu 1261 kilometrə bərabərdir. Azərbaycanla sərhəd 787 km (bunun 221 km-i Naxçıvanla sərhəddir), Türkiyə ilə sərhəd 268 km, Gürcüstanla sərhəd 164 km, İranla sərhəd 42 km-dir. Faktiki olaraq Ermənistanın xarici sərhədləri boyunca yerləşən yaşayış məntəqələrinin hamısında azərbaycanlılar yaşayırlar.

7 noyabr 1995-ci ildə Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında yeni qanun qəbul edilmişdir. Ermənistanın yeni inzibati-ərazi bölgüsünə əsasən həmin vaxtadək mövcud olan rayonlar üzrə bölgü ləğv edilmiş, əvəzində 11 vilayət (marz) yaradılmışdır. Şirak vilayətinə keçmiş Amasiya (Ağbaba), Qızıl Qoç (Qukasyan), Düzkənd (Axuryan), Ağin (Ani) və Ərtik (Artik) rayonları, Lori vilayətinə keçmiş Vorontsovka (Kalinino), Cəlaloğlu (Stepanavan), Allahverdi (Tumanyan), Hamamlı (Spitak) və Böyük Qarakilsə (Quqark) rayonları, Tavuş vilayətinə keçmiş Barana (Noyemberyan), Karvansara (İcevan) və Şəmşəddin (Tavuş) rayonları, Araqatsotn vilayətinə keçmiş Talın, Abaran, Ələyəz (Araqats), Əştərək (Aştarak) rayonları, Kotayk vilayətinə keçmiş Axta (Hrazdan), Ellər (Abovyan, Kotayk), Nairi rayonları, Gegarkunik vilayətinə keçmiş Çəmbərək (Krasnoselsk), Basarkeçər (Vardenis), Qaranlıq (Martuni), Kəvər (Kamo) və Yelenovka (Sevan) rayonları, Armavir vilayətinə keçmiş Bağramyan, Qurduqulu (Hoktemberyan) və Üçkilsə (Eçmiədzin, Vağarşapat) rayonları, Ararat vilayətinə keçmiş Zəngibasar (Masis), Qəmərli (Artaşat) və Vedi (Ararat) rayonları, Vayotsdzor vilayətinə keçmiş Paşalı (Əzizbəyov, Vayk) və Keşişkənd (Yeğeqnadzor) rayonları, Sünik vilayətinə keçmiş Mehri (Meğri), Qarakilsə (Sisian), Qafan və Gorus rayonları daxil edilmişdir. İrəvan şəhərinə də ayrıca vilayət statusu verilmişdir.

# QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ TƏKCƏ BİR NƏSLİN DEYİL, GƏLƏCƏK NƏSİLLƏRİN DƏ ARZUSU VƏ HAQQIDIR!









***Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova çıxışında Qərbi Azərbaycana qayıdış ideyasının yalnız siyasi və hüquqi deyil, həm də elmi, təhsil və mədəniyyət müstəvisində dəstəklənməsinin vacibliyindən bəhs edib. O vurğulayıb ki, Qərbi Azərbaycanın tarixi, folkloru, toponimiyası, etnoqrafiyası və mədəni irsi ilə bağlı aparılan tədqiqatlar sistemli şəkildə davam etdirilməli, bu istiqamətdə hazırlanmış elmi əsərlər və araşdırmalar daha geniş auditoriyaya çatdırılmalıdır.***

M.Hüseynova xüsusilə gənc nəslin Qərbi Azərbaycan həqiqətləri ilə bağlı maarifləndirilməsinin əhəmiyyətini qeyd edərək, məktəblilər və tələbələr arasında bu mövzuda biliklərin artırılmasının gələcək qayıdış prosesinin mühüm tərkib hissəsi olduğunu bildirib. O, olimpiada və digər intellektual yarışmaların suallarının hazırlanması zamanı Qərbi Azərbaycanın tarixi, coğrafiyası, toponimiyası və mədəni irsinə dair mövzulara daha geniş yer verilməsinin vacibliyini vurğulayıb. Natiq həmçinin Qərbi Azərbaycan araşdırmalarının ali təhsil müəssisələrində genişləndirilməsinin, müvafiq elmi mərkəzlərin yaradılmasının və beynəlxalq elmi əməkdaşlığın gücləndirilməsinin zəruriliyini diqqətə çatdırıb. O qeyd edib ki, xarici ölkələrdə keçirilən konfranslar, simpoziumlar və elmi tədbirlər Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır.

Ardınca çıxış edən Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, akademik Vaqif Şadlinski konfransın xüsusi əhəmiyyət daşıdığını bildirərək, bu görüşü qərbi azərbaycanlıların həmrəyliyinin, milli birliyinin və qayıdış əzminin təzahürü kimi qiymətləndirib. O qeyd edib ki, bu gün burada insanların bir araya gəlməsi sadəcə tədbir deyil, həm də tarixi ədalətə inamın, milli həmrəyliyin və qalib xalq ruhunun ifadəsidir.

V.Şadlinski öz ailəsinin və nəslinin deportasiya taleyindən bəhs edərək, Qərbi azərbaycanlıların ötən əsrdə dəfələrlə öz doğma torpaqlarından didərgin salındığını xatırladıb. O vurğulayıb ki, uzun illər ərzində insanların qəlbində yaşayan qayıdış arzusu bu gün artıq yeni mərhələyə qədəm qoyub. Natiq Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi Zəfərin Qərbi Azərbaycana qayıdış ideyasına da yeni nəfəs verdiyini bildirib.

Vaqif Şadlinski qeyd edib ki, Qərbi Azərbaycana qayıdış təkcə bir nəslin deyil, gələcək nəsillərin də arzusu və haqqıdır. O, Azərbaycan xalqının tarix boyu üzləşdiyi çətinliklərə baxmayaraq öz milli kimliyini, tarixi yaddaşını və torpaq sevgisini qoruyub saxladığını vurğulayaraq, qərbi azərbaycanlıların da bir gün öz ata-baba yurdlarına qayıdacaqlarına inamını ifadə edib. Çıxışının sonunda o, bugünkü günü "bərabərlik və qalibiyyət bayramı" kimi dəyərləndirərək, bu birliyin və həmrəyliyin gələcəkdə daha da güclənəcəyinə əminliyini bildirib.

# Qərbi Azərbaycan Araşdırmalar Mərkəzində maarifləndirici və elmi görüş keçirilib

***ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektorluğunun nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzində növbəti maarifləndirici və elmi görüş keçirilib. Görüşdə Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, teatr ənənələri və milli-mənəvi irsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Tədbirdə tanınmış alimlər, tədqiqatçılar və digər qonaqlar iştirak ediblər.***



Görüş zamanı İrəvan teatrı haqqında kitabın müəllifi,professor İlham Rəhimli çıxış edərək İrəvan teatrının yaranma tarixi, inkişaf mərhələləri və Azərbaycan mədəniyyətində tutduğu mühüm yer barədə ətraflı danışıb. O, İrəvan teatr mühitinin formalaşmasında Azərbaycan ziyalılarının rolunu xüsusi vurğulayıb, teatrın milli-mədəni yaddaşın qorunmasında mühüm əhəmiyyət daşıdığını qeyd edib. Professor eyni zamanda bu istiqamətdə apardığı araşdırmalar, səfərlər və topladığı materiallar haqqında məlumat verərək iştirakçılarla maraqlı xatirələrini bölüşüb. O, Qərbi Azərbaycanda mövcud olmuş teatr ənənələrinin gələcək nəsillərə çatdırılmasının vacibliyini diqqətə çatdırıb.

Tədbirdə professor Məryəm Əlizadə də çıxış edərək Qərbi Azərbaycanın zəngin mədəni mühiti, burada formalaşmış ədəbi və teatr ənənələri haqqında fikirlərini bölüşüb. O, Qərbi Azərbaycan mədəniyyətinin Azərbaycan xalqının ümumi mədəni irsinin ayrılmaz hissəsi olduğunu vurğulayaraq, bu irsin araşdırılması və təbliğinin mühüm əhəmiyyət daşıdığını bildirib. Professor çıxışında milli-mənəvi dəyərlərin qorunmasının vacibliyinə toxunaraq gənc nəslin tarixi yaddaşının formalaşdırılmasında belə görüşlərin xüsusi rol oynadığını qeyd edib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Atatürk Mərkəzinin şöbə müdiri, "Komeral təsvirlər" kitabının müəllifi Nazir Əhmədli isə çıxışı zamanı Qərbi Azərbaycanın rayonları, yaşayış məntəqələri və tarixi-coğrafi əraziləri barədə geniş məlumat təqdim edib. O, xəritə üzərində tarixi Azərbaycan torpaqlarını göstərərək həmin ərazilərin qədim yaşayış məskənləri və mədəniyyət ocaqları olduğunu diqqətə çatdırıb. Nazir Əhmədli deportasiya prosesləri, soydaşlarımızın öz doğma yurdlarından məcburi şəkildə köçürülməsi və bunun xalqımızın tarixi yaddaşında buraxdığı izlər barədə də ətraflı danışıb. Çıxış zamanı tarixi faktlar və araşdırmalar əsasında iştirakçılara geniş məlumat verilib.

Görüş çərçivəsində digər qonaqlar da çıxış edərək Qərbi Azərbaycanın tarixi, mədəniyyəti və milli irsi ilə bağlı fikirlərini bölüşüblər. Tədbirdə iştirakçılar arasında fikir mübadiləsi aparılıb, mövzu ətrafında maraqlı müzakirə-



lər keçirilib.

Sonda Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru Leyla Cəlalova çıxış edərək qonaqlara Qərbi Azərbaycanın tarixi keçmişi, deportasiya siyasəti və xalqımızın üzləşdiyi tarixi ədalətsizliklər barədə geniş məlumat verib. O, çıxışında xüsusilə Türkmənçay müqaviləsi haqqında danışaraq həmin müqavilədən sonra regionda baş verən siyasi-demoqrafik dəyişikliklərə toxunub, Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların tarixi torpaqlarından mərhələli şəkildə uzaqlaşdırılması prosesinin mahiyyətini iştirakçıların diqqətinə çatdırıb. Leyla Cəlalova qeyd edib ki, tarixi həqiqətlərin araşdırılması və gələcək nəsillərə çatdırılması bu gün mühüm elmi və mənəvi məsuliyyət daşıyır.

Daha sonra Mərkəzin baş mütəxəssisi Möhübbət Məmmədov çıxış edərək XX əsrin 60–70-ci illərində həyata keçirilən "səssiz deportasiya" siyasəti barədə ətraflı məlumat verib. O bildirib ki, həmin dövrdə azərbaycanlı əhalinin doğma yurdlarından sistemli şəkildə uzaqlaşdırılması müxtəlif inzibati və sosial vasitələrlə həyata keçirilib. Möhübbət Məmmədov bu prosesin təkcə demoqrafik deyil, həm də mədəni və mənəvi nəticələrinin olduğunu vurğulayaraq, Qərbi Azərbaycana aid tarixi yaddaşın, toponimlərin və milli-mədəni irsin qorunmasının vacibliyini diqqətə çatdırıb.

## Tanıyaq, tanıdaq!

# Mirzə Cabbar Məmmədzadə



**Mirzə Cabbar Məmmədzadə 1882-ci ilin yanvar ayının 20-də İrəvan şəhərində, camaat arasında "fars Abbas" ləqəbi ilə məşhur olan xalq müəllimi Mirzə Abbasın ailəsində dünyaya gəlmişdir. Əvvəl ev təhsili almış, sonra isə İrəvan Müəllimlər Seminariyasında oxumuşdur.**

Həmin seminariyada 1898-ci ildə İrəvanda ilk rus-müsəlman məktəbinin açılmasında rolu olan Axund Məmmədbağır Qazızadə ona dərs demişdir. Mirzə Cabbar 1902-ci ildə seminariyanı bitirəndən sonra həmin seminariyaya ekstern imtahan verir və müəllimlik şəhadətnaməsini alır. O, 1902-ci ilin sentyabrından Nehrəm məktəbində müəllim işləyib. 1903-cü ildə Qəmərli məktəbinə, 1904-cü ildə İmanşalı məktəbinə dərs deməyə gedib. 1905-ci ildən 1906-cı ilin 1 sentyabrına kimi Qəmərli məktəbinin nəzarətçisi olub.

19 yanvar 1913-cü ilə qədər İrəvan Müəllimlər Seminariyasında Azərbaycan Dili müəllimi işləmişdir. Bəzi mənbələrə görə isə 1910-1918-ci illərdə seminariyada müəllim işləmişdir.

1906-cı il sentyabr 1-də İbadulla bəy Muğanlinskinin İrəvanda açdığı şəxsi hazırlıq məktəbinə rus dili və riyaziyyat müəllimi kimi dəvət edilib. Birinci Dünya Müharibəsi dövründə Rusiya hökuməti İrəvan seminariyasını sərhəd şəhəri olan İrəvandan Armavirə köçürür. Mirzə Cabbar Məmmədzadə də 2 fevral 1915-ci ildən 1916-cı ilin mayına kimi burada dərs deyib. Bu illərə qədər onun tərtib etdiyi üç kitab nəşr olunur: "Türki-Azərbaycan dilinin xod amuz kitabı" (İrəvan, 1913), "Azərbaycan türklərinin rusca oxumaq, yazmaq və danışmaq öyrənməsi üçün müfid bir düstürüləməldir" (İrəvan, 1913), "Samouçitel russkoqo yazıka dlya persiyan" (Tiflis, 1917).

Mirzə Cabbar Məmmədzadə 1918-ci ildə daşnaklar hakimiyyətə gəldikdən sonra İrəvan gimnaziyası və müəllimlər seminariyası bağlandığına görə ailəsi ilə birgə Naxçıvana köçür. Buradakı ali ibtidai məktəbdə rus, türk və Azərbaycan dillərindən dərs deyir. Bundan başqa Naxçıvanın daşnaklardan müdafiəsində də iştirak edir.

1920-ci ildə Ermənistan bolşeviklər tərəfindən işğal edildikdən sonra Mirzə Cabbar İrəvana qayıdır. Həmin ilin axırında ailəsi ilə İrəvandan Bakıya köçərək burada Azərbaycan Dövlət Universitetində, Azərbaycan Pedaqoji İnstitutunda, Azərbaycan Kooperativ İnstitutda pedaqoji fəaliyyətini davam etdirib. Şeirlər yazmaqla yanaşı, dilçiliklə bağlı araşdırmalar aparmış, "Azərbaycan dilinin tədrisi metodikası" adlı bir vəsait də yazmışdır. 1920-ci illərdə tək və müştərək Azərbaycan və rus dillərində ibtidai və orta məktəblər üçün iyirmiyədək dərsliyin tərtibçi-müəllifi olur. Azərbaycan Kooperativ İnstitutunda kafedra müdiri, dosent vəzifəsinə seçilir. 1935-ci ildə dil və ədəbiyyat üzrə elmlər namizədi və professor, 1937-ci ildə isə elmlər doktoru adına layiq görülür. O, Əsəd Şeyxzadə, Maqsud Məmmədov, akademiklər Mustafa Topçubaşov, Heydər Hüseynov, professor Əziz Əliyev və digər görkəmli şəxsiyyətlərin müəllimi olub.

1937-ci ilin oktyabr ayında özü və ailə üzvləri həbs olunub. 12493 nömrəli istintaq işi üzrə ittiham edilərək güllələnib. Həyat yoldaşı və qızı isə sürgün edilib. 1957-ci ildə günahsızlığı sübut edildikdən sonra bəraət qazanıb.



**İrəvan ziyalıları: Arxada Mirzə Cabbar Məhəmmədzadə, öndə İbadulla Muğanlınski**

Atası Mirzə Abbas Məhəmmədzadə Naxçıvan və İrəvanın ictimai-siyasi, mədəni və ədəbi mühitində tanınan ziyalılardan biri olub. İrəvanda pansionda, həm də gimnaziyada fars dilindən dərs deyib. Onun farsca "Güldəstə" və ya "Bədrəqətül-ətfal" ("Balalara hədiyyə") dərsliyi 1911-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində, 1913-cü ildə isə İrəvanda "Budaqov" mətbəəsində nəşr olunmuşdur. Kitabın üstündə "İrəvanda satış üçün" sözləri yazılmışdır. Mirzə Abbas Məhəmmədzadə Sədinin və Caminin tərbiyəvi əhəmiyyət kəsb edən nəsihətamiz şeirlərindən istifadə etmişdir. Gözəl şair olan, "Razi" təxəllüsü ilə şeirlər yazan Mirzə Abbas "Güldəstə" kitabında öz şeirlərində də bol-bol istifadə etmişdir. O, şeirlərində xalqı maarifə, elmə çağırır, maarifçilik ideyalarını təbliğ edir. 1913-cü ildə Mirzə Abbasın tərtib etdiyi "Samouçitel farsidskoqo yazıka dlya russkix" adlı kitab Bakıda Orucov qardaşlarının mətbəəsində nəşr edilir Dərslik kimi uzun müddət istifadə olunmuş bu kitab həm də tərtibçinin rus dilini çox gözəl bildiyini təsdiq edir.



**Sağdan: Mirzə Cabbar Məmmədzadə, atası Mirzə Abbas və İbadulla bəy Muğanlinski, İrəvan, XX əsrin əvvəlləri**

Oğlu Cəlal Məmmədov Azərbaycan Teleradio Dövlət Komitəsində sədr müavini, "Kommunist" qəzetində redaktor müavini vəzifələrində çalışıb. 1966-cı ildə "Azərbaycan" jurnalının baş redaktoru təyin edilmiş, 1975-ci ildən ömrünün sonunadək isə Kitab Ticarəti, Poliqrafiya və Nəşriyyat işləri üzrə Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsində işləyib.

Əmisi oğlu Maqsud Məmmədov Azərbaycan Dövlət Universitetinin rektoru olmuş, Azərbaycan SSR xalq maarif komissarı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi vəzifələrində çalışmışdır. 1937-ci ilin sentyabr ayında həbs edilərək güllələnmişdir.



**İrəvan Müəllimlər Seminariyasının XVIII buraxılışında (1901–1902) aşağıda soldan 3-cü Mirzə Cabbar Məmmədzadə**

## Tanıyaq, tanıdaq!

# Bala İbrahim oğlu Əfəndiyev

**Bala İbrahim oğlu Əfəndiyev (1893, Çaykənd, Qazax qəzası – 1938, Bakı) — Azərbaycan və SSRİ dövlət xadimi, Azərbaycanda və Ermənistanda Sovet hakimiyyətinin qurulması uğrunda fəal mübariz, repressiya qurbanı.1927–1929-cu illər Ermənistan SSR İctimai Təminatı Xalq komissarı (naziri).**



Bala Əfəndiyev 1893-cü ildə Gəncə quberniyası, Qazax uyezdi, Qaraqoyunlu mahalının Çaykənd kəndində ruhani ailəsində doğulub. Onun mənsub olduğu Əfəndilər nəslinin başçısı, babası Hacı Alı Əfəndi təhsilli din xadimi, kəndin ruhani rəhbəri olub. Əfəndilər nəsli Qaraqoyunlu dərəsinin imkanlı, sayılıb-seçilən nəsillərdən idi. Bala dünyaya gəlməmiş atası İbrahim Əfəndi dünyasını dəyişir. Balanın tərbiyəsi ilə əmisi molla Məhəmməd Əfəndi və atalığı Hacı Əhməd Əfəndi məşğul olurlar. Bala öz kəndlərində molla məktəbini bitirir. Daha sonra əmiləri Balada elm və sənətə olan böyük həvəsi görüb, onu 1907-ci ildə Qazaxda təzə açılmış rus məktəbinin hazırlıq siniflərində təhsil almağa göndərirlər. Bala Əfəndiyev həmin siniflərdə təhsilini davam etdirir, rus dilinə yiyələnir və 1912-ci ildə məktəbi bitirir.

Sərbəst həyat arzusu gənc Balanı 1913-cü ildə Bakıya gətirir. Burada o Zabratdakı "Molot" zavodunda işə düzəlir. Fəhlə hərəkatına qoşulur, şəxsi keyfiyyətləri sayəsində tez bir zamanda gənc aktiv fəhlə liderinə çevrilir, peşəkar inqilabçı kimi yetişir, Hacı Əli təxəllüsü ilə tanınır. Mənşəyinə uyğun olmasa da solçuluq, bolşevizm ideologiyasını qəbul edir və həyatının faciəvi sonunadək onlara sadiq qalır. 1917-ci ilin may ayında müsəlman kommunistlərinin Hümmət təşkilatına qəbul edilir. Bakı sovetinə və onun İcraiyyə komitəsinə üzv seçilir.

Qafqaz bolşeviklərin nəzarətinə keçdikdən sonra B. Əfəndiyev məsul vəzifələrdə çalışır. O cümlədən, 1922–1929-cu illərdə Ermənistan SSR-da mühüm postlar tutur.

B. Əfəndiyev İrəvanda fəaliyyəti zamanı Azərbaycan dilində "Rəncbər" və "Zəngi" qəzetlərinin nəşrinə nail olur və onlara baş redaktor kimi bilavasitə rəhbərlik edir. İrəvanda Azərbaycan (o vaxtkl adı ilə Türk) Pedaqoji texnikumununun açılmasını təşkil edir. Bu təhsil müəssisəsi Ermənistanda Azərbaycan məktəbləri üçün pedaqoji kadrların hazırlanmasında mühüm rol oynayır. İrəvan Azərbaycan Dram teatrının işini bərpa edirdir, onun da fəaliyyətində şəxsən iştirak edir, hətta ehtiyac olduqda özü və həyat yoldaşı Fatma Əfəndiyeva xanım da səhnədə rol alırlar. 20-ci illərdə Azərbaycan dili latın qrafikasına keçir və Qərbi Azərbaycanda latın əlifbasına keçidə B. Əfəndiyev rəhbərlik edir.

### *Tutduğu vəzifələr*

- 1918-ci il may-iyul Bakı Sovetinin Kəndlilərlə iş üzrə komissarı.
- 1920–1921-ci illər Gəncə İnqilabi Komitəsinin sədr müavini, Gəncə şəhər milisinin rəisi.
- 1921–1922-ci illər Şamxor qəzası inqilabi komitəsinin sədri.
- 1922–1924-cü illər Ermənistan SSR Daxili İşlər Xalq Komissarının müavini.
- 1924–1927-ci illər Ermənistan Kommunist partiyası Mərkəzi Komitəsinin millətlər şöbəsinin müdiri.
- 1927–1929-cu illər Ermənistan SSR İctimai Təminatı Xalq komissarı (naziri).
- 1929-cu il Zaqafqaziya Federasiyası fəhlə-kəndli müfəttişliyi Xalq Komissarlığının kollegiya üzvü (Tiflis).
- 1929–1933-cü illər Azərbaycan Kommunist partiyası Mərkəzi Təftiş Komissiyasının məsul katibi, eyni zamanda Azərbaycan SSR fəhlə-kəndli müfəttişliyi Xalq Komissarının müavini.
- 1933–1934-cü illər Sabirabad rayon İcraiyyə Komitəsinin sədri.
- 1934–1935 Lənkəran rayon İcraiyyə Komitəsinin sədri.
- 1935–1937-ci illər Azərbaycan KP Zaqatala rayon komitəsinin birinci katibi.

Bəzi məlumatlara əsasən həbsindən az əvvəl Azərbaycan SSR Yüngül Sənaye Xalq komissarı vəzifəsinə təyin edilibmiş.

B. Əfəndiyev dəfələrlə Azərbaycan KP MK və Mərkəzi İcraiyyə Komitəsinin, Ermənistan KP MK və Mərkəzi İcraiyyə Komitəsinin, habelə Zaqafqaziya MİK-nin üzvü seçilib. 1924-cü ildə SSRİ Sovetlərinin 2-ci qurultayının, 1930-cu ildə Ümumittifaq KP(b) 16-cı qurultayının nümayəndəsi olub.

Ermənistanda və Azərbaycanda Sovet hakimiyyətinin qurulması uğrunda fəal mübariz, hər iki respublikada yüksək vəzifələrdə çalışmış məşhur partiya və dövlət xadimi B. Əfəndiyev bir çoxları kimi, siyasi repressiya qurbanı olmuşdur. O, 1937-ci ilin avqust ayında həbs edilmiş və 08 yanvar 1938-ci ildə güllələnmişdir. Onun ömür-gün yoldaşı Fatma xanım Əfəndiyeva da 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Hər ikisi 1955-ci ildə tam bəraət qazanmışlar.

Qaraqoyunluların təkidi və tələbi ilə Çaykənd orta məktəbinə Bala Əfəndiyevin adı verilmiş və məktəbin qarşısında 1973-cü ildə onun büstü qoyulmuşdur.

Onu da qeyd etmək yerinə düşər ki, Bala Əfəndiyevin əmisi qızı və eyni zamanda həyat yoldaşı, 1906-cı ildə Çaykənddə anadan olmuş Fatma xanım da ilk təhsilini Çaykənddə almışdır.

# Qalaser kəndində 1 MAY

## (Mayofka)

**May ayının 1-i Dərələyəzin digər kəndlərində olduğu kimi Qalaser kəndindədə xüsusi sevgi və böyük coşqu ilə qarşılanardı. Bu gün sadəcə bir bayram deyil, həm də kənd insanlarının birliyini, dostluğunu və paylaşma ruhunu yaşadan ən gözəl ənənələrdən biri - "Mayofka" idi. Hər il kənd əhalisi Soyuq bulaq, Molla bulağı, Çay dərəsi və digər səfalı məkanlarda bir araya gələr, təbiətin qoynunda unudulmaz bir gün keçirərdi.**



Bayram tədbirində hər evdən iştirak edən olardı. İnsanlar səhər tezdən ailələri ilə birlikdə bulaq başına yollanar, özləri ilə hinduşka, toyuq, xoruz və çəpiş və digər kənd nemətləri gətirərdilər. Oradaca heyvanlar kəsilər, böyük samovarlar qaynayar, kabablar çəkilər, xaşlama bişirilərdi. Açıq havada qurulan böyük süfrə ətrafında bütün kənd bir ailə kimi birləşərdi.

Kənd qadınlarının hazırladığı nemətlər Mayofkanın xüsusi bəzəyi sayılırdı. Şoşan, baldırğan, çaşur və zirincdən hazırlanan turşular süfrəyə özünəməxsus dad qatardı. Odun təndirində bişirilən isti çörək və lavaş bulaq başına gətirilər, yeməklərin ətri bütün dərəyə yayılardı. Xüsusilə, Molla bulağının qarşısında kəsilən çəpişdən hazırlanan kabab və xaşlamanın dadı illərlə yaddaşlardan silinməzdi.

Dərələyəzdə 1 MAY sadəcə yemək-içmək məclisi deyildi, bu gün həm də insanların birlik və həmrəylik simvolu idi. Qalaser kəndinin əhalisi yeyər, içər, deyib-gülər, dərdləşər və milli rəqslər oynayardı. Ən çox sevilən rəqslərdən olan Dərələyəz yallıları məclisə xüsusi rəng qatardı. Qalaserdə Molla bulağının qarşısında yerləşən və "Cəfərin gölü" adlanan məkan isə yallı havalarının əsas meydanı kimi tanınardı.

Bu gün həmin dövrlərdən qalan xatirə şəkilləri keçmişin canlı izlərini yaşadır. Xüsusilə Qalaser kəndindən qalan 1 MAY şəkilləri yaşlı nəslə o illərin xoş xatirələrini yenidən yaşatdığı kimi, gənc nəsildə də Qərbi Azərbaycana, Dərələyəzə, doğma yurdlara və milli-mədəni irsə böyük maraq oyadır.

Qalaserdə Molla bulağının qarşısında, "Cəfərin gölü" deyilən yerdə çəkilmiş bu xatirə fotosunda doğma yurdun tanınmış sakinləri və ziyalıları əks olunmuşdur. Şəkildə Alıyev Süleyman Qiyas oğlu (Professor İsa Alıyevin əmisi), Vəliyev Elburus Həsən oğlu, Əhmədov Ənvər İsağ oğlu, Cəfərov Səfər Cəfər oğlu, Vəliyev Elxan Həsən oğlu, Mamedov Mahir Hilal oğlu, Bağırov Elman Məhər oğlu, Qələndərov Məzahir Qəşəm oğlu, Nurəddin müəllim (Qalaser kənd məktəbinin riyaziyyat müəllimi) və Rüstəmov Nizam Hüseyin oğlu yer almışdır.

Bu şəkil sadəcə bir xatirə deyil - bir dövrün həyat tərzini, insanların saflığını, kənd məhəbbətini və birlik ruhunu yaşadan qiymətli tarixi yadigardır. 1 MAY "Mayofka" ənənəsi Dərələyəz insanının yaddaşında bu gün də sevgi ilə yaşayır və Qərbi Azərbaycanın zəngin mədəniyyətinin unudulmaz bir parçası olaraq qalır.

**P.S.** *Bu yazı Qərbi Azərbaycan İcması, Keşkənd rayonu Qalaser kənd icma rəhbəri Fərhad Ələkbərovun materialları əsasında hazılanıb.*

***ADPU-Qərbi Azərbaycan Araşdarmalar Mərkəzi***

# Biz azərbaycanlılar hər zaman sülhün tərəfdarı olmuşuq

**Dünya tarixinə qanla yazılmış ən faciəli səhifələrdən biri də 1941–1945-ci illərdə baş vermiş İkinci Dünya müharibəsidir. Milyonlarla insanın həyatına son qoyan bu müharibədə SSRİ-nin tərkibində olan Azərbaycan, xüsusilə Bakı nefti ilə cəbhənin təminatında mühüm rol oynayaraq alman-faşizmi üzərində qələbəyə əhəmiyyətli töhfə vermişdir. Tarixi yaddaşın qorunması və bu həqiqətlərin gənc nəslə çatdırılması məqsədilə bu gün müxtəlif beynəlxalq layihələr həyata keçirilir. Onlardan biri də Rusiya Federasiyası və Belarus Respublikasının birgə təşkilatçılığı ilə 2022-ci ildə təsis edilmiş beynəlxalq “Yaddaş Qatarı” mədəni-təhsil layihəsidir. İlk illərdə yalnız Rusiya və Belarus məktəblilərini əhatə edən layihə sonradan genişlənərək 2024-cü ildə Azərbaycanın da iştirak etdiyi nüfuzlu beynəlxalq platformaya çevrilmişdir.**



Azərbaycan 2024-cü ildə ilk dəfə bu layihədə iştirak hüququ qazandıqda ölkəmizi 15 nəfər 10-cu sinif şagirdi təmsil etmişdir. Fəxr doğuran məqamlardan biri də həmin nümayəndə heyətinin tərkibində əslən Qərbi Azərbaycanın Dərələyəz mahalının Çivə kəndindən olan ,gənc ictimai-fəal Leyla Xəlilovanın yer alması olmuşdur.

2024-cü il iyunun 20-dən iyulun 5-dək davam edən səfər çərçivəsində Leyla Xəlilova Rusiya və Belarusun “qəhrəman şəhər”lərini ziyarət etmiş, İkinci Dünya müharibəsinin tarixi, qəhrəmanlıq salnaməsi və həmin dövrün acı həqiqətləri ilə yaxından tanış olmuşdur. O, bütün səfər boyu Azərbaycanı yüksək vətənpərvərlik ruhu ilə layiqincə təmsil etmiş, üçrəngli Dövlət Bayrağımızı qürurla dalğalandıraraq ölkəmizin milli dəyərlərini və sülhsevər mövqeyini beynəlxalq mühitdə nümayiş etdirmişdir.

Layihə müddətində onun vətənpərvərlik mövqeyi və milli dəyərlərə sədaqəti bir neçə mühüm hadisədə də özünü açıq şəkildə göstərmişdir. Belə ki, iştirakçılardan olan erməni nümayəndələrdən biri nəsildən-nəsilə ötürülən nifrətini,xislətində olan kini göstərərək,Leyla Xəlilovanın çiynində daşıdığı Azərbaycan Dövlət Bayrağını qəsdən yerə salmağa cəhd etmişdir. Lakin Leyla Xəlilova bu təxribat xarakterli davranış qarşısında səssiz qalmamış, beynəlxalq tədbirin etik normalarını və subordinasiyanı qorumaqla həmin şəxsə qətiyyətli etirazını bildirmiş, Azərbaycan bayrağının onun üçün müqəddəs dəyər olduğunu nümayiş etdirmişdir.

Bu hadisədən bir neçə gün sonra, iyulun 4-də təşkil olunan vida yeməyində o, masaların üzərində yerləşdirilmiş Azərbaycan bayraqlarına Ermənistan nümayəndələri tərəfindən hörmətsiz və ləyaqətsiz münasibət göstərildiyini müşahidə etmişdir. Bunun qarşılığında Leyla Xəlilova yalnız Azərbaycan bayraqlarını deyil, digər dövlətlərin, o cümlədən Ermənistanın bayraqlarını da diqqətlə toplayaraq səliqəli şəkildə qorumuşdur. Daha sonra isə vaxtilə Azərbaycan bayrağını yerə atmağa cəhd edən iştirakçıya Ermənistan bayrağını təqdim edərək rus dilində belə demişdir:

“Bunlar sizin bayraqlarınızdır. Mən masaların üzərindəki Azərbaycan bayraqlarına nümayəndələriniz tərəfindən göstərilən hörmətsiz münasibəti gördüyüm üçün öz ölkəmin bayraqlarını topladım. Eyni zamanda sizin bayraqlarınızı da səliqə ilə sizə qaytarıram. Çünki bizə Vətənimizdə öyrədiblər ki, dilindən, dinindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq bütün insanlara tolerant münasibət göstərmək, hər bir dövlətin rəmzlərinə isə hörmətlə yanaşmaq lazımdır.”

Bu sözlər qarşı tərəfdə narazılıq doğurmuş, erməni iştirakçı tarixi həqiqətləri təhrif edən, heç bir elmi və hüquqi əsası olmayan ,şişirdilmiş iddialarla öz mövqeyini əsaslandırmağa çalışmışdır. Leyla Xəlilova isə soyuqqanlılığını qoruyaraq qətiyyətlə cavab vermişdir:

“Səsləndirdiyiniz fikirlərin heç biri həqiqəti əks etdirmir. Biz azərbaycanlılar hər zaman sülhün tərəfdarı olmuşuq. Əgər söylədiyiniz kimi bir xalq olsaydıq, bu gün nəinki Qarabağ məsələsi, hətta Qərbi Azərbaycan məsələsi də çoxdan hərbi yolla həll edilmişdi. Lakin Azərbaycan hər zaman beynəlxalq hüquqa, ədalətə və sülhə söykənən mövqe nümayiş etdirib.”

Beləliklə, Leyla Xəlilova beynəlxalq platformada təkcə Azərbaycan Respublikasını deyil, xalqımızın milli-mənəvi dəyərlərini, tolerantlıq ənənələrini və tarixi həqiqətlərini də ləyaqətlə müdafiə etmişdir. O, Qərbi Azərbaycan həqiqətlərini beynəlxalq auditoriyada cəsarətlə səsləndirmiş, üçrəngli Dövlət Bayrağımızı Rusiya və Belarus torpaqlarında qürurla dalğalandırmış, hər addımı ilə Azərbaycan gəncliyinin milli qürurunu, vətənpərvərliyini və yüksək mənəvi keyfiyyətlərini nümayiş etdirmişdir.






Bu gün Leyla Xəlilova Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Dövlət və ictimai münasibətlər ixtisasında təhsil alır. Universitet həyatında da sosial fəallığı ilə seçilən Leyla Xəlilova “BDU Könüllüləri” təşkilatının Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində İdarə Heyətinin üzvü kimi fəaliyyət göstərir.

Onun ictimai fəallığı hələ məktəb illərindən formalaşmağa başlamışdır. IX sinifdən məzun olana qədər Bakı şəhəri 72 nömrəli məktəb-liseyin nəzdində fəaliyyət göstərən “Kiçik Akademiya”nın şagirdlər üzrə sədri olmuş, respublika və Bakı şəhəri səviyyəsində keçirilən müxtəlif müsabiqələrdə uğurlu nəticələr əldə etmiş, beynəlxalq və ölkə miqyaslı konfranslarda, forumlarda və layihələrdə fəal iştirak etmişdir.

Leyla Xəlilova hazırda dörd dildə sərbəst ünsiyyət qurur, publisistik və bədii yaradıcılıqla da məşğul olur, müxtəlif mövzularda məqalələr və şeirlər qələmə alır.O,Qərbi Azərbaycan həqiqətlərinin araşdırılması ,tarixi yaddaşın qorunması və təbliği istiqamətində də fəal mövqe nümayiş etdirir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektorluğunun nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzində mətbuat üzrə məsul şəxs kimi fəaliyyətini davam etdirir.

Belə gənclərin fəaliyyəti milli dəyərlərə bağlılığın, vətənpərvərlik ruhunun və fəal vətəndaş mövqeyinin gənc nəsildə yaşadıldığını göstərən ən gözəl nümunələrdəndir. Tarixi yaddaşa sədaqət, milli kimliyə bağlılıq və ölkəsini beynəlxalq platformalarda ləyaqətlə təmsil etmək kimi keyfiyyətlər isə Azərbaycanın gələcəyinin etibarlı əllərdə olduğunu bir daha nümayiş etdirir.



*Nağıyeva Nilgün*
*Qərbi Azərbaycan Gənclər Şurasının Üzvü*
*Azərbaycan Dövlət İqtisad Universitetinin magistr I kurs tələbəsi*

Təsisçi və Baş redaktor
**Mahirə Hüseynova**
*Redaktor*
**Leyla Calalova**

*Məsul katib*
**Möhübbət Məmmədov**
*Korrektor*
**Aynurə Babayeva**

Redaksiya heyəti:
**İbrahim Bayramov**
**Könül Həsənova**
**Səməd Vəkilov**
**Fərrux Rüstəmov**
**Cəlal Allahverdiyev**

Azərbaycan Respublikası Medianın İnkişaf Agentliyi Media Reyestri Şəhadətnaməsi Qeydiyyat: №: CA61EF8114733BA
**Ünvanımız:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 68

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj: 200 Sifariş: 2274**